## Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi aşağıdakı vakant vəzifələr üzrə müsahibə ELAN EDİR

*1. Baş mühasib şöbə müdiri.*

*2. Qeydiyyatçı.*

*3. Mühəndis-inventarlaşdırıcı.*

Müsahibədə iqtisadiyyat, iqtisadiyyatın hüquqi tənzimlənməsi, inşaat, memarlıq, mühəndislik və hüquqşünaslıq ixtisasları üzrə ali təhsilli şəxslər iştirak edə bilərlər. Müsahibədə iştirak etmək istəyənlər 10 aprel 2015-ci il tarixdə anket məlumatları (CV) ilə birlikdə 9 saylı Ərazi İdarəsində (Qəbələ, Oğuz, İsmayıllı rayonları üzrə) saat 09.00-dan 13.00-dək qəbud ediləcəklər.

**Ünvan: Qəbələ şəhəri, Zərifə Əliyeva küçəsi 6. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi.**

## Hörmətli həmvətənlər, humanist, qayğıkeş və mehriban insanlar!

Mənim 13 yaşım var. Anadangəlmə talesimiyalı xəstəyəm. Vaxtaşırı müalicə alıram. Təəssüf ki, yaşıdlarım kimi, sağlam və gümrah deyiləm, məktəbə də müntəzəm davam edə bilmirəm. Həkimlərin məlumatına görə sağlam olmaq üçün əməliyyat olunmalıyam. Lakin valideynlərimin buna maddi imkanı yoxdur.

Deyirlər, əl tutmaq Əlidən qalıb. Xeyirxah insanlara Allah min əvəz verir. Odur ki, sizlərin yardımına ehtiyacım var. Mən də başqaları kimi sağlam və gümrah olmaq istərdim...

Kapital bankın Qəbələ filialında mənim hesabım açılmışdır:

**Benefisiar (alan) bank.**

Adı: Kapital bankın Qəbələ filialı.

Kodu: 200491.

VÖEN: 9900003611.

Müxbir hesab:

AZ37NABZ01350.

100000000001944.

S.W.I.F.T. BIK AIIBAZ2X.

**Alan müştəri**

**Adı:** Nəsibov Bağır Ağabala oğlu.

AZ15AIIB38010019444903040149

VÖEN 9900003611

Yardım edənlərin hər birinə qabaqcadan dərin minnətdarlıq edirəm.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Səxavət Mehdiyevə,** dayısı

**RAMİZ HÜSEYNOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

---

Qəbələ Peşə Məktəbinin kollektivi **Şamama Qurbanovaya,** övladı

**NAZİR QURBANOVUN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir

---

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin kollektivi muzeyin direktoru **Xalis Xalid oğlu Məmmədova,** bacısı

**XOŞQƏDƏM XANIMIN**

vəfatı ilə əlaqədar olaraq dərin hüznlə başsağlığı verir, ruhuna rəhmətlər diləyir.

---

«Qəbələ» qəzetinin kollektivi rayon tarix-diyarşünaslıq muzeyinin direktoru **Xalis Məmmədova,** bacısı

**XOŞQƏDƏM XANIMIN**

vəfatı ilə əlaqədar olaraq dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin kollektivi iş yoldaşları

**RAMİZ HÜSEYNOVUN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

---

Əhalinin Sosial Müdafiəsi Mərkəzinin kollektivi mərkəzin direktoru **Arzu Hacıyevə,** anası

**GÜLNİŞİN HACIYEVANIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

# Fövqəladə Hallar Nazirliyi xəbərdarlıq edir

## *Novruz bayramı ilə bağlı yanğın təhlükəsizliyi!*

Novruz bayramında yarana biləcək yanğın təhlükəsi ilə bağlı bir sıra qaydaları bilməyimiz vacibdir:

—Bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır;

—Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalıdır;

—Tonqal tam sönənədək nəzarətdə saxlanılmalıdır;

—Hər bir tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər;

—Yandırılan şamlar nəzarətsiz qalmamalıdır;

—Əgər pirotexniki vasitələrdən istifadə edilərsə, təhlükəsizlik qaydalarına ciddi əməl olunmalıdır.

Yadda saxlayın: qapalı məkanda atəşfəşanlıq etmək olmaz!

Unutmayın: Qaydalara biganəlik—həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

# Gəlir vergisinə edilmiş dəyişikliklər barədə



Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli “Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında” Qanunu

31 dekabr 2014-cü il tarixədək qüvvədə olmuşdur. Həmin Qanunun qüvvədə olduğu müddət ərzində fiziki şəxslərə əmanətləri üzrə

ödənilən faizlər Vergi Məcəlləsinin 123-cü maddəsi ilə nəzərdə tutulan ödəmə mənbəyində vergidən azad edilmişdir.

Bu Qanunun qüvvədən düşməsi ilə əlaqədar

Vergi Məcəlləsinə yeni 102.1.22-ci maddə əlavə edilmişdir. Bu maddəyə əsasən yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirlərinin 500 manatadək olan hissəsi gəlir vergisindən azaddır.

***Misal:***

**1. Fiziki şəxs 01.01.2015-ci il tarixdə yerli banka 1 il müddətinə illik 9 faiz dərəcəsi ilə 10000 manat məbləğində əmanət yerləşdirmişdir. Bu halda, ilin sonunda fiziki şəxsə ödəniləcək faizlərdən ödəmə mənbəyində tutulmalı vergi aşağıdakı qayda ilə hesablanacaq:**

10000 manat x 9% = 900 manat (ödəniləcək faizin məbləği)

(900-500) x 10% = 40 manat (ödəmə mənbəyindən tutulan vergi)

**2. Fiziki şəxs 15.03.2014-cü il tarixdə yerli banka 1 il müddətinə illik 10 faiz dərəcəsi ilə 40000 manat məbləğində əmanət yerləşdirmişdir. Müqavilədə faizlərin bir ilin tamamında götürülməsi nəzərdə tutulmuşdur. Bu halda, 15.03.2015-ci ildə fiziki şəxsə ödəniləcək faizlərdən ödəmə mənbəyində tutulmalı vergi aşağıdakı qayda ilə hesablanacaq:**

40000 manat x 10% = 4000 manat(ödəniləcək faizin məbləği)

Faiz gəlirlərinin yalnız 01.01.2015-15.03.2015-ci il dövrünə düşən hissəsi vergiyə cəlb olunacaq:

4000 manat/12 ay = 333,3 manat

333,3 manat x 2,5 ay = 833,25 manat

(833,25 manat - 500 manat ) x 10% = 33,3 manat (ödəmə mənbəyindən tutulan vergi)

3. Fiziki şəxs 01.01.2015-ci il tarixdə bir yerli banka illik 12%-lə 20000 manat, digər yerli banka 01.01.2015-ci il tarixdə illik 11%-lə 15000 manat əmanət yerləşdirmişdir. Üçüncü banka isə 01.02.2015-ci il tarixdə illik 7%-lə 5000 manat əmanət yerləşdirmişdir. Bütün müqavilələr 1 illik müddətə bağlanmışdır.

Bu halda güzəşt fiziki şəxsin hər bir faiz gəlirinə ayrı-ayrılıqda tətbiq ediləcək:

20000 x 12 % - 500 manat =1900 manat x 10%=190 manat

15000 x 11% - 500 manat = 1150 manat x 10% = 115 manat

5000 x 7% - 500 manat < 0 vergi tutulmur.

4. Fiziki şəxs 01.01.2015-ci il tarixdə yerli bankın iki ayrı-ayrı filialının hər birinə illik 12%-lə 20000 manat əmanət yerləşdirmişdir. Bütün müqavilələr 1 illik müddətə bağlanmışdır.

Bu halda əmanət eyni bankın iki ayrı-ayrı filialına yerləşdirildiyinə görə güzəşt faiz gəlirinin cəminə tətbiq ediləcək:

40000 x 12 % - 500 manat = 4300 manat x 10% = 430 manat.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.